# Yerli icra hakimiyyəti orqanlarının strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, yerli icra hakimiyyəti orqanlarının strukturunun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təşkili, optimallaşdırılması və onların fəaliyyətində səmərəliliyin artırılması məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N° 6, maddə 542 (Cild I); 2024, N° 4, maddə 379, N° 5 (I kitab), maddə 529; 2025, Nq 5, maddə 459, Nq 8, maddə 763) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası şəhər, rayon və şəhər rayonu icra hakimiyyəti başçıları aparatlarının, icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin nümunəvi strukturu və ştat vahidlərinin sayı" yeni redaksiyada verilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Yerli icra hakimiyyəti orqanları:

3.1. strukturlarının və ştat vahidlərinin bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş nümunəvi struktura və ştat vahidlərinə uyğunlaşdırılmasın! bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər;

3.2. bu Fərmanın 3.1-ci bəndinin tətbiqi ilə əlaqədar ştatları ixtisar olunan dövlət qulluqçularına münasibətdə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 464 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 21.1,6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası"na uyğun olaraq tədbirlər görsünlər.

4. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi bu Fərmanın 3.2-ci bəndi nəzərə alınmaqla, ştatları ixtisar olunan dövlət qulluqçularının analoji dövlət qulluğu vəzifələrinə təyin edilmələri ilə bağlı öz fəaliyyət istiqamətlərinə uyğun olaraq tədbirlər görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 10 dekabr 2025-ci il*
*№ 546*

# 907-ci düzəlişin ləğvi Azərbaycana nə vəd edir?

6 avqust 1992-ci ildə ABŞ Konqresi SSRİ-in dağılmasından sonra Rusiya və yeni müstəqil digər dövlətlərdə demokratik idarəetmə və azad bazar iqtisadiyyatına keçidi sürətləndirmək məqsədilə Azadlığa Dəstək Aktı (Freedom Support Act) sənəd qəbul etdi. Sonradan sənədə humanitar, təhlükəsizlik və terrorizmlə mübarizə kimi əlavə istiqamətlər də daxil edilmişdir.

Maraqlıdır ki, elə həmin il bir neçə ay sonra - oktyabrın 24-də Konqres bu qanuna düzəliş edərək ABŞ-ın hər hansı formada Azərbaycan hökumətinə birbaşa yardımını qadağan edib. 907-ci düzəliş (Section 907) kimi tanınan bu müddəa Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi səbəbindən Ermənistana və Dağlıq Qarabağa qarşı iqtisadi blokada tətbiq etməsini əsas gətirərək ABŞ-dakı erməni diasporu və onların təsirli lobbi təşkilatlarının təşəbbüsü ilə qəbul edilmiş, bunun sayəsində Azərbaycan ABŞ-nin post-sovet məkanında yardım və dəstəyini birbaşa qəbul edə bilməyən yeganə dövlətə çevrilmişdir.

Doğrudur, zaman-zaman ABŞ rəhbərliyi öz xarici siyasi maraqları naminə bu müddəanın tətbiqində dəyişikliklər etmişdir. Xüsusilə 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra Vaşinqtonun terrora qarşı qlobal müharibəsində, xüsusilə Əfqanıstandakı hərbi əməliyyatları çərçivəsində ABŞ-nin strateji əhəmiyyəti artan Azərbaycana ehtiyacının artması ilə 907-ci düzəliş ilk dəfə 2002-ci ildə donduruldu. Daha sonrakı illərdə Corc Buş, Barak Obama, Donald Tramp və Cozef Bayden administrasiyaları hər il bu düzəlişi dondurmağa davam etdiriblər. Heç vaxt ləğv edilməmiş bu maddə həmin dövrdən etibarən hər il dondurulmuş, bu da ABŞ administrasiyalarının Azərbaycanla hərtərəfli, əsasən də hərbi sahədə əməkdaşlıq etməsində maneələri müvəqqəti olaraq sıradan çıxarmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtona tarixi səfəri zamanı qəbul edilən strateji qərarlardan biri də 907-ci düzəlişin ləğvi oldu. Beləliklə, 33 il sonra, Azərbaycan Prezidentinin qətiyyətli xarici siyasəti nəticəsində sözügedən düzəliş artıq qüvvədə deyil.

Bu addım ABŞ-nin Azərbaycana birbaşa dövlət yardımlarının həcmini artıracaq. 2024-cü ildə Azərbaycan ABŞ-dən cəmi 20 milyon dollar yardım alıb. Həmin il Ermənistan 92 milyon dollar, Gürcüstan isə 180 milyon dollarlıq Vaşinqton yardımından faydalana



bilib. Göründüyü kimi, ötən il Azərbaycanla müqayisədə Ermənistana 4.6 dəfə, Gürcüstana isə 9 dəfə çox ABŞ yardımı ayrılıb. 2024-cü ildə Ukrayna ABŞ-dən ən çox yardım alan dövlət olub. Rusiya ilə müharibə aparan ölkəyə il ərzində 16.4 milyard dollar ayrılıb. Efiopiya, İordaniya, Somali və Konqo daha çox yardım alan ilk beşliyi tamamlayıblar.

907-ci düzəliş ABŞ-Azərbaycan əlaqələrində və onların daha da yüksək səviyyəyə qaldırılmasında ən problemli məsələlərdən biri olub. Son 2 onillikdə karbohidrogen gəlirləri sayəsində iqtisadiyyatını inkişaf etdirmiş Azərbaycanın maddi olaraq yuxarıda adı çəkilən akta və ABŞ-nin birbaşa maliyyə yardımlarına ehtiyacı xeyli azalıb. Bununla belə, müddəanın "Damokl qılınc" kimi bu əlaqələrin üzərində asılı qalması həm simvolik, həm də praktik baxımından maneələr yaradır və ümumiyyətlə Azərbaycan cəmiyyətində çox ədalətsiz və ikili standartların bir nümunəsi hesab edilir.

ABŞ qanunvericiliyi çərçivəsində bir müddəaya xitam verilməsi bir çox hallarda onun qəbulundan daha mürəkkəb olsa da, 907-ci düzəlişin yenidən dondurulması və ya tamamilə ləğvi ilə bağlı yeni addımlar atıla bilər.

Bu istiqamətdə ən effektiv addımlardan biri 907-ci düzəlişin ləğvi ilə bağlı ortaq səylərin Azərbaycan-Ermənistan sülh danışıqlarına və hətta sülh müqaviləsinə mətnin daxil edilməsi ola bilər. Vaxtilə sözügedən müddət məhz Ermənistana qarşı Azərbaycanın addımlarını (blokada) əsas gətirərək qəbul edilmişdi. Sülh prosesi zamanı dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi və barışığı sürətləndirmək məqsədilə İrəvan təkcə və ya Bakı ilə birlikdə həm ABŞ rəhbərliyinə, həm də ABŞ-da effektiv olan erməni lobbi təşkilatlarına 907-ci düzəlişin aradan götürülməsi ilə bağlı müraciət edə bilər. Rəsmi İrəvanın bu qurumlara effektiv təsiri çox olmasa da, belə bir addım həm böyük rəmzi məna daşıyar, həm də ABŞ-dakı ermənipərəst qüvvələrin Azərbaycan əleyhinə yaydıqları arqument və təbliğatları zəifləDə bilər.

Eynilə, 907-ci düzəliş də artıq aktual deyil və Azərbaycan ilə Ermənistan arasında düşmənçiliyin bitməsi naminə onun ləğvi məntiqli addım olardı. Rəsmi İrəvan da bu maddənin ləğvinə dəstək verməklə xoş niyyətini göstərə və regionda uzunmüddətli sülhün və sabitliyin güclənməsinə yardım edə bilər.

907-ci düzəlişin ləğvi ilə bağlı razılaşma Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevlə ABŞ Prezidenti Donald Tramp arasında baş tutmuşdu. Həmin görüşdə iki ölkə münasibətlərini strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmək qərarına gəlmişdi.

907-ci düzəliş isə bu niyyətin qarşısında duran əsas maneə idi. O maneə aradan götürüldü, ədalət bərpa edildi. Bununla həm də Azərbaycan-ABŞ münasibətlərinə zərbə vurmağı qarşısında məqsəd qoyan erməni diasporu tarixinin ən böyük məğlubiyyətini aldı.

907-ci düzəlişin qəbul olunması nəticəsində yeni müstəqillik qazanmış və böyük çətinliklərlə üzləşən Azərbaycan səkkiz il ABŞ-dən yardımı ala bilməyib. 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra 907-ci düzəliş əleyhinə fəaliyyət gücləndi. Bu istiqamətdə mühüm işlər aparılıb.

Ulu Öndər Heydər Əliyev 27 iyul-7 avqust 1997-ci ildə ABŞ-yə rəsmi səfəri zamanı ABŞ-Azərbaycan münasibətlərinə böyük zərbə vuran 907-ci əlavənin ləğvinin zəruriliyini Prezident Klintona və Konqres üzvlərinin diqqətinə çatdırıb. 1 avqust 1997-ci ildə Heydər Əliyevlə söhbət zamanı Bill Klinton ABŞ Konqresinin 907-ci əlavəyə münasibətini dəyişəcəyini bildirib. O, əvvəlcə Azərbaycana yardımların təmin olunacağını, daha sonra həmin əlavənin ləğv ediləcəyini deyib.

Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə 8 avqust 2025-ci ildə Vaşinqtonda keçirilən üçtərəfli görüş Cənubi Qafqazda uzun-müddətli münaqişənin həllinə doğru atılan ən mühüm addımlardan biri kimi tarixə yazıldı. Keçirilən tarixi görüşün əsas nəticəsi sülh sazişinin paraflanması, regionda yeni nəqliyyat-logistika reallıqlarının formalaşdırılması və yeni əməkdaşlıq perspektivlərinin açılması oldu.

Görüş zamanı ABŞ administrasiyası tərəfindən uzun müddətdən bəri müzakirə olunan 907-ci düzəlişin dayandırılması ilə bağlı qərarın verilməsi də rəsmən elan edildi. Azərbaycan Prezidenti İlham Əliyev bu qərarı "33 il sonra ədalətin bərpası" kimi qiymətləndirdi.

907-ci düzəliş ABŞ tərəfindən hələ ki, ləğv edilməyib, sadəcə olaraq bir il müddətinə dondurulub. ABŞ qanunvericiliyinə görə, düzəliş yalnız onu qəbul edən orqan - Konqres tərəfindən ləğv edilə bilər. Prezidentin düzəlişi bir il müddətinə dondurmaq səlahiyyəti var.

Heç bir blokadanın olmadığı, Azərbaycanla Ermənistan arasında sülh, normallaşma prosesinin davam etdiyi, kommunikasiyaların açılması məsələsinin müzakirə olunduğu, ticarət əlaqələrinin bərpa edilməsi istiqamətində işlərin aparıldığı bir vaxtda heç bir əsası olmayan 907-ci düzəlişin ləğvi çox vacib məsələdir. Nəhayət, haqsızlığa, ədalətsizliyə son qoyulmalıdır.

Hazırda 907-ci düzəlişin ləğv edilməsi istiqamətində Konqresin özündə də müəyyən işlər aparılır. ABŞ Konqresinin üzvü Anna Paulina Luna bildirib ki, Azərbaycana verilən hərbi və maliyyə yardımlarını məhdudlaşdıran 907-ci düzəlişin tamamilə ləğv olunması vacibdir. Bu məqsədlə qanun layihəsini Nümayəndələr Palatasına təqdim edib. Qeyd edək ki, artıq bu barədə Konqresin saytında da məlumat yerləşdirilib. Luna bu addımın ABŞ-nin regional siyasətdə daha çevik hərəkət etməsinə imkan yaradacağını vurğulayıb. Onun sözlərinə görə, hazırkı məhdudiyyətlər mövcud reallıqlara uyğun deyil və tərəfdaşlıq əlaqələrinə əngəl törədir. Azərbaycanın enerji təhlükəsizliyi, regional stabillik və antiterror sahəsində ABŞ üçün strateji tərəfdaş olması nəzərə alınaraq, 907-ci düzəlişin saxlanması məqsədəuyğun deyil. Anna Paulina Luna dediklərinə onu da əlavə edib ki, qanun layihəsinin qəbul olunması Azərbaycan-ABŞ əlaqələrinin inkişafına töhfə verəcək.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ səsi"**